

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 12 (20.913)

22 yanvar 2014-cü il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Yanvarın 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Gəncə şəhərində Heydər Əliyev park-kompleksinin, Heydər Əliyev Mərkəzinin və bir sıra iqtisadi və sosial təyinatlı müəssisələrin açılışında iştirak etmişdir.

Prezident İlham Əliyev əvvəlcə yenidən qurulmuş Heydər Əliyev Parkında ulu öndərin abidəsini ziyarət etdi. Prezident İlham Əliyevə Heydər Əliyev Parkında aparılan yenidənqurma və abadlıq işləri barədə məlumat verildi. Parkın girişində möhtəşəm “Zəfər Tağı”ı ucaldılıb. Hazırda parkda gənclər üçün əyləncə mərkəzi və qış parkının tikintisi davam etdirilir.

Sonra dövlətimizin başçısı Heydər Əliyev Mərkəzinin açılışında iştirak etdi.

Prezident İlham Əliyev Gəncə Olimpiya Parkının təməlqoyma mərasimində iştirak etdi. Dövlətimizin başçısına Olimpiya Parkının eskiz layihəsi haqqında ətraflı məlumat verildi. Qeyd olundu ki, Olimpiya Parkı Beynəlxalq Olimpiya Komitəsinin standartlarına tam cavab verəcəkdir. Prezident İlham Əliyev Gəncə Olimpiya Parkının təməlini qoydu.

Prezident İlham Əliyev Heydər Əliyev Fondunun dəstəyi ilə Gəncədə inşa olunmuş Məhsəti Gəncəvi Mərkəzinin açılışında iştirak etdi.

Daha sonra Prezident İlham Əliyev Nizami Gəncəvi Muzeyinin açılışında iştirak etdi.

Prezident İlham Əliyev “DET AL” Alüminium MMC-nin Detal Alüminium Kompleksinin alüminium yarımfabrikat istehsalı zavodlarının açılışında iştirak etdi, Gəncə Qala Qapıları – Arxeologiya və Etnoqrafiya Muzeyi Abidə Kompleksi ilə də tanış oldu.

* * *

Yanvarın 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Davosda keçirilən Dünya İqtisadi Forumunda iştirak etmək üçün İsveçrəyə işgüzar səfərə gəlmişdir.

## Azərbaycanın ən yeni tarixində Naxçıvan



***Dünən Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyində “Azərbaycanın ən yeni tarixində Naxçıvan” mövzusunda açıq dərs keçilib. Açıq dərsdə Naxçıvan şəhər 1 nömrəli tam orta məktəbin şagirdləri iştirak ediblər.***

Məktəbin tarix müəllimi Nərminə Cəfərova bildirib ki, seçilmiş insanlar, bir qayda olaraq, fərqli missiya yerinə yetirirlər. Tarixin mənzərəsini yaratmaq onların üzərinə qoyulmuş vəzifədir. Xalqımızın böyük oğlu Heydər Əliyev də seçilmiş şəxsiyyətlərdəndir. Onun həyatının mənası da, tükənməz enerjisi də, qətiyyəti və müdrikliyi də seçilmiş insan olmasından irəli gəlir. Buna görə də Azərbaycanın tarixində ümummilli lider Heydər Əliyevin ayrıca rolu və yeri vardır. Azərbaycan tarixinin Heydər Əliyev dövrü təkcə sürətli inkişaf, yüksəliş anlayışları ilə səciyyələnmir. Bu daha çox mahiyyətcə yeni dövrün, yeni tarixin formalaşması anlamına uyğun gəlir. Ulu öndər Heydər Əliyev Azərbaycanın qədim və çoxəsrlik tarixinin yeni dövrünü, daha dəqiq desək, Azərbaycanın yeni tarixini yaradıb. Və heç şübhəsiz, bu dövrə, bu tarixə onun adı əbədi həkk olunub.

Azərbaycanın ən yeni tarixində Naxçıvanın yeri və rolu haqqında danışan Nərminə Cəfərova bildirib ki, ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə 1990-1993-cü illərdə Naxçıvandan başlanan müstəqillik yolu bütün Azərbaycan siyasi mühitində aparıcı siyasi qüvvəyə çevrilməklə milli dövlətçiliyimizin bərpası istiqamətində qəti addımların atılmasına gətirib çıxarıb. Üçrəngli bayrağımız ilk dəfə ümummilli liderin sədrliyi ilə Naxçıvan parlamentində qaldırılıb, Naxçıvan Muxtar Respublikasının adından “Sovet Sosialist” sözləri çıxarılıb. Naxçıvanda ulu öndərin rəhbərliyi ilə ölkə əhəmiyyətli qərarlar qəbul edildiyi bir vaxtda Azərbaycanın digər bölgələrində hərc-mərclik, özbaşınalıq, vətəndaş müharibəsi baş qaldırmışdı. Müstəqilliyimizin ilk illərində hakimiyyətə yiyələnən qüvvələrin səriştəsizliyi ölkəmizi parçalanmaq, dövlətçiliyimizi itirmək təhlükəsi qarşısında qoymuşdu. Hakimiyyət uğrunda çəkişmə Ermənistanla aparılan müharibəni də arxa plana keçirmişdi. Azərbaycan dövlətçiliyinə qənim kəsilən dairələrin fikrincə, xaotik proseslərin nəticəsi kimi Azərbaycan parçalanmalı və nəticə etibarilə, iri dövlətlərdən asılı vəziyyətə düşməli idi. Xarici dairələrin təsiri altına düşən sapı özümüzdən olan baltaların rəvac verəcəkləri vətəndaş müharibəsi xalqa böyük müsibətlər gətirməli idi. Amma onlar ən mühüm məqamı – Azərbaycan xalqının böyük inam bəslədiyi ulu öndərin ətrafında birləşmək istəyini nəzərə almamışdılar. Xalq görkəmli dövlət xadimi Heydər Əliyevin yenidən siyasi hakimiyyətə gəlişini vəziyyətdən yeganə çıxış yolu kimi görmüş və vaxtında öz böyük oğlunu Bakıya dəvət etməklə çox düzgün bir addım atmışdır.

Bildirilib ki, Azərbaycanımızın ayrılmaz hissəsi olan qədim Naxçıvan bu gün sürətli inkişaf yolundadır. Muxtar respublikamızda Heydər Əliyev yolunun bütün sahələrdə böyük uğurla davam etdirilməsi nəticəsində diyarımız gündən-günə çiçəklənir, həyata keçirilən nəhəng quruculuq tədbirləri Naxçıvanın hərtərəfli inkişafını təmin edir. Azərbaycan və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvanın bugünkü hərtərəfli inkişafı Heydər Əliyev yoluna sədaqətin bəhrəsidir.

Sonra şagirdlər muzeyin ekspozisiyası ilə tanış olublar.

**Səbuhi HÜSEYNOV**

## Azərbaycan Respublikasının Qarsdakı Baş Konsulluğunda 20 Yanvar faciəsinin ildönümü qeyd edilmişdir

***Yanvarın 18-də Azərbaycan Respublikasının Türkiyənin Qars şəhərindəki Baş Konsulluğunda 20 Yanvar faciəsinin 24-cü ildönümünə həsr olunmuş mərasim keçirilmişdir.***

Mərasimdə 20 Yanvar şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad edilmiş, Azərbaycan və Türkiyə respublikalarının Dövlət himnləri səsləndirilmişdir.

Azərbaycanın Qarsdakı Baş konsulu Ayxan Süleymanov xalqımızın müstəqillik uğrunda apardığı mübarizə və Qanlı Yanvar faciəsinin səbəbləri haqqında ətraflı bəhs etmişdir. Qeyd olunmuşdur ki, 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakı şəhərində dinc əhaliyə qarşı sovet ordu hissələri tərəfindən görünməmiş vəhşiliklər törədilmiş, insanlar amansızcasına qətlə yetirilmişdir. Xalqımız üçün bu ağır günlərdə ümummilli lider Heydər Əliyev Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gələrək faciəni törədənləri kəskin ittiham etmiş və regionda baş verən siyasi proseslərin əsl mahiyyətini beynəlxalq ictimaiyyətin diqqətinə çatdırmışdır. Ulu öndər Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə gəldikdən sonra isə 20 Yanvar faciəsinə hüquqi-siyasi qiymət verilmişdir.




Baş konsul 20 Yanvar faciəsinin törədildiyi zaman qardaş Türkiyənin müxtəlif bölgələrində, eləcə də Qars və İğdır şəhərlərində keçirilən etiraz aksiyalarının mühüm əhəmiyyət daşıdığını bildirmişdir.

Sonra 20 Yanvar faciəsindən bəhs edən sənədli film nümayiş olunmuş, tədbir iştirakçıları faciə ilə bağlı fotostendlərə baxmış, ehsan süfrəsi açılmışdır.

Mərasimdə Qars valisinin müavini Hakan Alkan, bələdiyyə sədri Nevzat Bozkuş, Qars Qafqaz Universitetinin müəllim və tələbələri, Ədalət və İnkişaf Partiyasının, Milliyyətçi Hərəkat Partiyasının və Cümhuriyyət Xalq Partiyasının Qars vilayət rəhbərləri və üzvləri, hüquq-mühafizə orqanlarının əməkdaşları, ziyalılar və ictimaiyyətin nümayəndələri iştirak etmişlər.

**“Şərq qapısı”**

## Gənclərin hərbi xidmətə yola salınması mərasimi keçirilib



“Azərbaycan Respublikası vətəndaşlarının 2014-cü il yanvarın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 14 dekabr 2013-cü il tarixli Sərəncamına əsasən, dünən Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətində gənclərin müddətli həqiqi hərbi xidmətə yola salınması mərasimi keçirilib.

Mərasimi giriş sözü ilə Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi, polkovnik Səxavət Salmanov açıb.

Azərbaycan Respublikasının Dövlət himni səsləndirildikdən sonra xidmətin rəisi bildirib ki, ölkəmizdə ordu quruculuğuna göstərilən dövlət qayğısı silahlı qüvvələrimizin hərtərəfli inkişafına və güclənməsinə səbəb olub. Bu gün ölkəmizin təhlükəsizliyini təmin edən müasir və güclü ordusu vardır. Ordu quruculuğuna ayrılan xərclərin ildən-ilə artırılması, hərbi sənaye kompleksinin inkişaf etdirilməsi, ordunun müasir əsaslarla komplektləşdirilməsi işğal altında olan torpaqlarımızın da tezliklə azad olunmasına imkan verəcəkdir. Görülən işlərin nəticəsidir ki, indi silahlı qüvvələrimizin Naxçıvan Muxtar Respublikasında yerləşən hərbi hissələrində də xidmət üçün hərtərəfli şərait yaradılıb. Buna görə də gənc çağırışçılar böyük ruh yüksəkliyi ilə xidmətə yollanırlar.

Naxçıvan Muxtar Respublikası Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurasının sədr müavini Heydər Heydərov, Naxçıvan Muxtar Respublikası ədliyyə nazirinin müavini Elnur İsmayılov, gənclər və idman nazirinin müavini Məcid Seyidov çıxış edərək bu əlamətdar hadisə münasibətilə çağırışçıları və onların valideynlərini təbrik ediblər.

Valideyn Məhərrəm Qənbərov ordu sıralarına yola düşən gənclərə xoş arzularını çatdırıb, övladının hərbi xidmətə yollanmasından böyük qürur hissi keçirdiyini deyib.

Çağırışçılar adından çıxış edən Mətləb Abbasi Vətənə şərəflə xidmət edəcəklərinə, komandirlərinin tapşırıqlarını can-başla yerinə yetirəcəklərinə söz verib.

Qeyd edək ki, həmin gün Sədərək və Şahbuz rayonlarında da çağırışçıların hərbi xidmətə yola salınması mərasimləri keçirilib.

**Səbuhi HƏSƏNOV**

*Etibarlı ərzaq təminatı hər bir ölkənin iqtisadi sabitliyinin və sosial dayanıqlılığının başlıca şərti, dövlətin iqtisadi təhlükəsizliyinin əsas amillərindəndir.*

# Ərzaq təhlükəsizliyi yeni mərhələdə

Aparılan araşdırmalar göstərir ki, son illər dünyada ərzaq istehsalının illik artımının azalması tendensiyası müşahidə edilir və bu azalmanın növbəti illərdə də davam edəcəyi proqnozlaşdırılır. Hazırda qlobal istiləşmə və iqlim dəyişikliyi insanların ərzaq məhsullarına olan tələbatının ödənilməsində əhəmiyyətli rol oynayan kənd təsərrüfatı sektoruna daha çox mənfi təsir göstərir. Kənd təsərrüfatını iqlim dəyişikliklərinə adaptasiya etmək qlobal ərzaq təhlükəsizliyinin təmin olunması və ekosistemi qorumaq baxımından vacib olmaqla yanaşı, həm də xeyli xərc tələb edir. Bütün bu faktlar onu göstərir ki, hazırda ərzaq təhlükəsizliyi probleminin səmərəli həlli dünyada gedən sürətli qloballaşma prosesi fonunda ən mühüm məsələlərdəndir. Odur ki, Naxçıvanda ərzaq təhlükəsizliyinin təmin olunmasına ciddi diqqət yetirilir və bu sahədə mühüm nailiyyətlər qazanılmışdır.

Əldə olunmuş nailiyyətlərin əsas və həlledici amillərindən biri muxtar respublikada sahibkarlığın inkişafına geniş meydan verilməsi və bu sahəyə dövlət yardımının ilbəil artırılması, sahibkarların təcrübəsinin daha da zənginləşdirilməsi istiqamətində müvafiq tədbirlərin reallaşdırılmasıdır. Regionumuzda kənd təsərrüfatının inkişafı ilə bağlı əldə olunan müvəffəqiyyətlər istər ərzaq təhlükəsizliyinin təmin olunmasında, istərsə də emal müəssisələrinin xammalla təchizatında mühüm rol oynayır. Bu cəhətdən Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 17 sentyabr 2008-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" mühüm əhəmiyyət kəsb edir.

Dövlət proqramı kənd təsərrüfatı məhsulları istehsalının əsas istiqamətlərinin müəyyənləşdirilməsinə, əhalinin təhlükəsiz və keyfiyyətli ərzaqla təmin edilməsinə, idxaldan asılılığın aradan qaldırılmasına, sahibkarlığın inkişafına stimul olmuşdur.

Dövlət tərəfindən kənd təsərrüfatı istehsalçılarına və emal müəssisələrinə texniki və maliyyə dəstəyinin göstərilməsi aqrar bölmənin inkişafında böyük rol oynayır. "Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 23 yanvar tarixli Sərəncamına uyğun olaraq, kənd təsərrüfatı məhsulları istehsalçılarının istifadə etdikləri yanacağın, motor yağının və mineral gübrələrin dəyərinin orta hesabla 50 faizinin dövlət tərəfindən ödənilməsi, buğda səpininin, toxum və ting istehsalının subsidiyalaşdırılması kənd təsərrüfatı istehsalına güclü təkan vermişdir. Bununla yanaşı, idxal olunan damazlıq heyvanların fermerlərə 50 faiz güzəştlə lizinq yolu ilə satılması təmin edilmişdir.

Aparılan məqsədyönlü siyasət aqrar sektorun inkişafına, nəticə etibarilə, istehsalın artmasına, məhsul bolluğunun yaranmasına səbəb olmuşdur. 2013-cü ildə muxtar respublikada 337 milyon manatdan çox kənd təsərrüfatı məhsulunun istehsal olunması buna sübutdur.

Muxtar respublikada kənd təsərrüfatının aparıcı sahələrindən biri əkinçilikdir. Regionun torpaq mülkiyyətçiləri bu sahədə zəngin təcrübəyə malikdirlər. Torpaq mülkiyyətçilərinə göstərilən hərtərəfli dövlət qayğısı, eləcə də iqlim və coğrafi şərait əkinçilikdə uğurlar qazanılmasını təmin etmişdir. Elə bu səbəbdəndir ki, 2013-cü ilin məhsulu üçün 60 min 127 hektar sahədə əkin aparılmışdır.

Aqrar sahədə nəzərdə tutulan xidməti işlərin yerinə yetirilməsini səmərələndirmək, sahibkarların əməyini yüngülləşdirmək, onları lazımi texnika ilə vaxtında və güzəştli şərtlərlə təmin etmək məqsədilə "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin xətti ilə ötən il 348 ədəd müxtəliftəyinatlı kənd təsərrüfatı texnikası alınaraq muxtar respublikaya gətirilmişdir. Hazırda bu təşkilat tərəfindən gətirilən texnikaların sayı 1227-yə çatmışdır. Ötən il gətirilmiş texnikalardan 253-ü lizinq yolu ilə məhsul istehsalçılarına verilmişdir. Əkinçiliklə məşğul olan fermerlərə verilən 4124 ton mineral gübrə məhsuldarlığın artırılmasına kömək etmişdir.

Kənd təsərrüfatında əsas sahə sayılan taxılçılığın inkişafı daim diqqət mərkəzindədir. Belə ki, 2013-cü ildə muxtar respublika üzrə 35 min 324 hektar sahədə taxıl əkilmişdir. Bunun 25 min 869 hektarını buğda təşkil etmişdir. Taxıl zəmilərindən 2012-ci ildəkindən 1112 ton çox, yəni 102 min 960 ton məhsul toplanmışdır.

Ərzaq təhlükəsizliyinin başlıca şərtlərindən biri dövlət ərzaq ehtiyatlarının təşkili və onların səmərəli idarə olunması, fövqəladə hallara yüksək səviyyəli hazırlığın təmin edilməsi, təbii fəlakətlərin nəticələrinin qısa zamanda aradan qaldırılmasından ibarətdir. Muxtar respublikada taxıl istehsalının artımı ilə yanaşı, taxıl ehtiyatının yaradılması imkanları da yaxşılaşdırılmış, ümumi tutumu 9 min ton olan üç yeni bunker istifadəyə verilmişdir. Bununla da, Naxçıvan Muxtar Respublikasında taxılı uzun müddətə saxlamağa imkan verən anbarın həcmi 18 min tondan 27 min tona çatdırılmışdır.

Ölkə başçısının "Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi haqqında" Sərəncamına uyğun olaraq, torpaq mülkiyyətçilərinə dövlət maliyyə yardımı davam etdirilmiş, kənd təsərrüfatı istehsalçılarına 2013-cü il ərzində muxtar respublikanın bank və bank olmayan kredit təşkilatları tərəfindən 14 milyon 784 min manatdan çox güzəştli kreditlər verilmişdir.

Muxtar respublikada taxılçılıqla yanaşı, kartofçuluğun inkişafına da ciddi diqqət yetirilir. Son illərə qədər regionda bu məhsula olan tələbat, əsasən, idxal hesabına ödənilirdi. İkinci çörək sayılan kartofa olan tələbatın yerli istehsal hesabına ödənilməsi məqsədilə görülən işlər bu cəhətdən diqqəti çəkir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2012-ci il 14 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nda torpaqlardan səmərəli istifadə olunması, investisiyaların yatırılması, müxtəlif servis mərkəzlərinin yaradılması, daxili bazarın qorunması, tələbata uyğun keyfiyyətli məhsul istehsalının dəstəklənməsi kimi zəruri tədbirlərin görülməsi məsələləri qarşıya qoyulmuşdur. Stimullaşdırıcı təsirə malik olan bu tədbirlərin nəticəsidir ki, kartof əkini sahələri ildən-ilə genişləndirilir. Daxili bazarın kartofla təminatında idxaldan asılılığın azaldılması, tələbatın yerli istehsal hesabına ödənilməsini təmin etmək məqsədilə muxtar respublikada əlverişli torpaq sahələri ayrılmışdır. Ötən il 2957 hektar sahədə kartof əkilmiş və sahələrdən 41 min tondan çox məhsul yığılmışdır.

İstehsal olunmuş məhsulların emalı, saxlanılması və satışının təşkili mühüm məsələlərdəndir. Son illər kənd təsərrüfatı məhsullarının emalı sahəsində böyük quruculuq işləri həyata keçirilir. Muxtar respublika əhalisinin qış mövsümündə keyfiyyətli tərəvəz məhsulları ilə təmin olunması üçün 11 istixana kompleksi istifadəyə verilmişdir.

Əhalinin müxtəlif əkinçilik məhsullarına olan tələbatının ödənilməsində soyuducu anbarların yaradılmasının da böyük rolu vardır. Bu anbarlar bir tərəfdən istehsal olunan məhsulların satışı ilə əlaqədar ortaya çıxan problemləri aradan qaldırmağa kömək edir, digər tərəfdən əhalinin il boyu keyfiyyətli yerli məhsullarla təmin olunmasına imkan verir. Son illər əhalinin meyvə-tərəvəz məhsullarına olan tələbatının daha dolğun ödənilməsi məqsədilə muxtar respublikada ümumi tutumu 12 min ton olan 17 soyuducu anbar qurularaq istifadəyə verilmişdir. Meyvə-tərəvəz və digər ərzaq məhsullarının istehsalında artıma nail olunması üçün emal sənayesinin inkişafı ilə bağlı tədbirlər müəyyənləşdirilmişdir. Qeyd olunanlarla yanaşı, kənd təsərrüfatı məhsullarının ixracını artırmaq, xarici bazarlarda rəqabətqabiliyyətli məhsul satmaq üçün məhsulun çeşidlənməsinə, qablaşdırılmasına, saxlanmasına, istehsalına və ixracına stimul yaradan digər tədbirlərin həyata keçirilməsi davam etdirilir.

Muxtar respublikada kənd təsərrüfatı və ərzaq məhsulları istehsalçılarının məhsullarının özləri tərəfindən satışa çıxarılması və əhalinin daha ucuz qiymətlərlə kənd təsərrüfatı məhsulları ilə təmin olunması məqsədilə şəhər və rayon mərkəzlərində satış yarmarkaları təşkil olunur.

Kənd təsərrüfatında əkinçiliklə yanaşı, heyvandarlıq da sürətlə inkişaf edir, məhsul istehsalı artır. Bu inkişaf muxtar respublikada baytarlıq xidmətinin səviyyəsinin yüksəldilməsi, məhsuldar cinsli mal-qaranın sayının artırılması istiqamətində görülən tədbirlərin nəticəsidir. Ötən il muxtar respublikada 2 yeni heyvandarlıq təsərrüfatı yaradılmışdır. Mal-qaranın cins tərkibini yaxşılaşdırmaq məqsədilə ötən il 337 baş, ümumilikdə isə son beş ildə 1678 baş cins mal-qara gətirilərək lizinq yolu ilə fermerlərə verilmişdir.

Maldarlıqla yanaşı, quşçuluğun inkişaf etdirilməsi də diqqətdən kənarda qalmamışdır. Daxili bazarda quş ətinə və yumurtaya olan tələbatı yerli istehsal hesabına ödəmək üçün 2013-cü ildə 13 yeni quşçuluq təsərrüfatı yaradılmışdır.

Muxtar respublikada arıçılığın inkişafına da ciddi diqqət yetirilir. Əsasən, keçmiş ənənələrə söykənən bu sahədə də uğurlar əldə olunmuşdur. Arıçılıqla məşğul olan sahibkarlara dövlət dəstəyi göstərilir və maliyyə dəstəyinin həcmi ildən-ilə artır. Balın emalı və qablaşdırılması ilə məşğul olan istehsal sahələrinin istifadəyə verilməsi bu sahənin yenidən genişləndirilməsində əvəzsiz rol oynayır. 2013-cü ilin əvvəlində muxtar respublikada 65 mindən çox arı ailəsi var idisə, ilin sonunda onların sayı 69 minə çatdırılmışdır. Bu artım bal istehsalının həcminin artmasına da təsir göstərmiş, il ərzində 1300 tondan çox bal istehsal edilmişdir.

"2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"nın əsas məqsədi muxtar respublika əhalisinin hər bir nəfərinin sağlam və məhsuldar həyat tərzi üçün onun qəbul edilmiş normalara uyğun ərzaq məhsulları ilə tam təmin edilməsinə nail olmaqdır. Ötən ilin yekunları bir daha göstərir ki, muxtar respublikada əhalinin təhlükəsiz ərzaqla davamlı təmin olunması üçün mühüm tədbirlər görülmüş və görülməkdədir. Qarşıda duran əsas vəzifə isə insanların öz işlərinə məsuliyyətlə yanaşması, torpağa daha ürəkdən bağlanmasıdır.

**Tural HAQVERDİYEV**
*Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin şöbə müdiri*

# İli uğurla başa vurduq, qarşıda isə bizi mühüm vəzifələr gözləyir

***İqtisadi inkişafın əsas amillərindən biri ölkədə həyata keçirilən uğurlu bank-kredit siyasətidir. Real sektorun inkişafını şərtləndirən yerli istehsalın genişləndirilməsi bank-kredit müəssisələrinin də səmərəli fəaliyyətindən çox asılıdır. Naxçıvan Muxtar Respublikasında sosial-iqtisadi inkişafın ümumi mənzərəsinə baxdıqda bu sahədə müsbət dinamikanın ötən 2013-cü ildə də davam etdirildiyini görmək mümkündür. Ötən il muxtar respublikamızda bank-kredit sahəsində hansı işlər görülmüş və əldə olunan nəticələr nədir? Bu kimi suallara cavab almaq üçün Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin sədr müavini Elvin Axundovla həmsöhbət olduq:***

*– Elvin müəllim, ötən il muxtar respublikamız üçün bank-kredit sahəsində nə ilə əlamətdar olmuşdur?*

– 2013-cü il Naxçıvan Muxtar Respublikasında hərtərəfli inkişaf ili kimi yadda qalmış və bu nailiyyətlərin əldə olunmasında bank sektoru da fəal iştirak etmişdir. Belə ki, muxtar respublikada fəaliyyət göstərən banklar və kredit təşkilatları tərəfindən 1 yanvar 2014-cü il tarixə muxtar respublikanın iqtisadiyyatına yönəldilən kredit qoyuluşu 84 milyon 287 min manat, o cümlədən qısamüddətli kredit qoyuluşu 14 milyon 631 min manat, uzunmüddətli kredit qoyuluşu isə 69 milyon 656 min manat təşkil etmiş, səmərəli kreditləşmə mexanizmi yeni istehsal və xidmət sahələrinin yaradılmasına təsir göstərən əsas amillərdən biri olmuşdur. Kredit qoyuluşları, əsasən, dövlət proqramlarının icrasına, real sektorun, kiçik və orta sahibkarlığın inkişafına yönəldilmişdir ki, bu da kənd təsərrüfatı, sənaye və istehlak malları istehsalının həcminin artması, yeni iş yerlərinin yaradılmasında mühüm rol oynamışdır.

Bank və digər kredit təşkilatları tərəfindən 2013-cü il ərzində 49 milyon 766 min manat kredit verilmişdir ki, bunun 18 milyon 648 min manatını qısamüddətli, 31milyon 118 min manatını isə uzunmüddətli kreditlər təşkil etmişdir. Verilmiş kreditin 14 milyon 784 min manatı kənd təsərrüfatı, 9 milyon 966 min manatı sənaye, 4 milyon 100 min manatı tikinti, 3 milyon 13 min manatı kommersiya, 767 min manatı nəqliyyat, 1 milyon 390 min manatı maliyyə fəaliyyəti üçün, 984 min manatı daşınmaz əmlakla əlaqədar ipoteka kreditlərinin verilməsinə, 14 milyon 762 min manatı digər kommunal, sosial və istehlak kreditlərinin verilməsi kimi sahələrə yönəldilmişdir. Verilmiş kreditlərin 35,3 faizini kiçikhəcmli kreditlər təşkil edir.

Muxtar respublikada fəaliyyət göstərən banklar tərəfindən fiziki və hüquqi şəxslərə açılmış bank hesablarının işlək hesablara çevrilməsi istiqamətində də tədbirlər həyata keçirilmiş, 2013-cü ildə 75 hüquqi, 8374 fiziki şəxs olmaqla, 8449 müştəriyə yeni bank hesabı açılmışdır ki, bu da 2012-ci illə müqayisədə 34,2 faiz artım deməkdir.

Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən banklar tərəfindən xarici valyuta köçürmələri üzrə xeyli işlər görülmüş, müxtəlif məqsədlər üçün 9 milyon 189 min avronun, 78 milyon 413 min ABŞ dollarının, 4 milyon 497 min rus rublunun köçürülməsi təmin olunmuşdur. Muxtar respublikada fəaliyyət göstərən 13 bank qurumunun hamısında 19 növ təcili pul köçürmələri sistemi fəaliyyət göstərir. 2013-cü ildə təcili pul köçürmələri vasitəsilə dünyanın 43-dən çox ölkəsindən muxtar respublika sakinlərinin adına 8 milyon 848 min ABŞ dolları məbləğində pul köçürülmüş və banklar vasitəsilə ödənilmişdir.

2013-cü ildə Naxçıvan Muxtar Respublikası üzrə bankların emissiya göstəricisi 62 faiz olmuş və ya keçən ilin müvafiq dövrü ilə müqayisədə 3,9 faiz azalmışdır.

2013-cü il ərzində Mərkəzi Bankın ehtiyat fondundan bankların nağd pula olan tələbatının ödənilməsi məqsədilə 665 milyon 766 min manat nağd pul dövriyyəyə buraxılmışdır ki, bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə 48 milyon 92 min manat və ya 7,8 faiz çoxdur. Bu isə onu göstərir ki, muxtar respublikanın iqtisadiyyatına yönəldilən investisiyanın həcmi durmadan artır və sosial-iqtisadi həyat dinamik inkişaf edir.

*– İnnovativ ödəniş sistemlərinin inkişaf etdirilməsi ilə bağlı hansı işlər görülmüşdür?*

– Muxtar respublikada nağdsız ödənişlərin miqyasının genişləndirilməsi hazırda qarşımızda duran əsas vəzifələrdəndir. Bu məqsədlə elektron ödəniş xidmətlərindən istifadə aktivliyinin artırılması üçün müvafiq tədbirlər həyata keçirilir. Ödəniş sistemlərinin inkişaf etdirilməsi, dövriyyədə olan nağd pul kütləsinin nağdsız dövriyyə ilə əvəz edilməsi üçün POS-terminalların quraşdırılması daim diqqət mərkəzində saxlanılmış, 1 yanvar 2014-cü il tarixə onların sayı 248 ədəd olmaqla keçən ilin müvafiq dövrü ilə müqayisədə 152 ədəd artmışdır. Artıq ödəniş kartları vasitəsilə vergi və rüsumların, Dövlət Yol Polisi, pasport və şəxsiyyət vəsiqəsi alınması rüsumlarının, gömrük rüsumlarının, Dövlət Sosial Müdafiə Fondu və onun yerli şöbələrinə sosial sığorta haqlarının, mobil və stasionar telefonların abunə və danışıq xərclərinin ödənilməsinin elektron ödəniş formasında aparılması təmin edilmişdir.

Vətəndaşlara müasir bank xidməti göstərilməsi məqsədilə 92 ədəd bankomatla xidmət göstərilmiş, o cümlədən 53-ü Naxçıvan şəhərində, 39-u isə rayon mərkəzlərində və böyük kənd yaşayış məntəqələrində olmaqla, muxtar respublika əhalisi tamamilə bu xidmətlə əhatə olunmuşdur. Muxtar respublika üzrə əməkhaqqı, pensiya və fərdi ödəniş kartı alanların sayı ötən ilin müvafiq dövründə 161 min 268 ədəd təşkil edirdisə, hazırda elektron ödəniş kartlarının ümumi sayı 183 min 72 ədədə çatmış və ya ötən ilin müvafiq dövrü ilə müqayisədə 21 min 804 ədəd artmışdır.

*– Bankların əmanətçilərlə işləri necə təşkil olunmuşdur?Bu sahədə vəziyyət necədir?*

– 2013-cü il ərzində muxtar respublikada fəaliyyət göstərən banklarda fiziki şəxslərin əmanətlərinin həcmi 5 milyon 71 min manat, o cümlədən xarici valyuta ilə 1 milyon 227 min manat təşkil etmişdir. Hazırda banklara qoyulan əmanətlər üçün müddətindən və növündən asılı olaraq, 4 faizdən 20 faizədək illik faiz ödənilir. 2013-cü ildə keçmiş SSRİ Əmanət Bankının Naxçıvan Muxtar Respublikasında olan əmanətçilərinə birdəfəlik fərdi ödəmələr davam etdirilmiş, 37 min 536 nəfər əmanətçiyə 13 milyon 993 min manat vəsait ödənilmiş və proses tamamilə başa çatdırılmışdır.

Ümumən baxdıqda isə muxtar respublikada fəaliyyət göstərən bank qurumlarının 2013-cü ili mənfəətlə başa vurduqlarını qeyd edə bilərəm. Gələcəkdə bank sektorunda işlərin daha da təkmilləşdirilməsi üçün elektron ödəniş məkanının formalaşdırılması, nağd pul kütləsinin bank dövriyyəsinə cəlb edilməsi, kredit portfelinin keyfiyyətinə nəzarətin gücləndirilməsi, pul dövriyyəsinin təşkilinin daha da müasirləşdirilməsi, inflyasiya hədəfi çərçivəsində iqtisadiyyatın pula tələbatının ödənilməsi, bank infrastrukturunun inkişafı, nağdsız hesablaşmaların miqyasının artırılması, yeni bank xidmətlərinin yaradılması kimi qarşımızda mühüm vəzifələr durur.

***– Müsahibə üçün sağ olun.***

**Əli CABBAROV**

# Azərbaycan rəssamlıq sənətinin görkəmli nümayəndəsi – Bəhruz Kəngərli

***Azərbaycanda realist rəssamlığın əsasını qoyan Bəhruz Kəngərli təsviri-incəsənət tariximizə adı qızıl hərflərlə həkk edilməyə layiq nadir istedad sahiblərindən biri olmuşdur. O, 1892-ci il yanvarın 22-də Naxçıvanda Şirəlibəyin ailəsində dünyaya göz açmışdır. İlk təhsilini doğma şəhərdə, sonra isə Tiflisdə xüsusi rəssamlıq məktəbində almışdır. Bəhruz Kəngərli əsərlərini tamamilə milli ruhda və üslubda yaratmışdır. Beləliklə də, mədəniyyətimizdə milli rəssamlığın inkişafında özünəməxsus rol oynamışdır. İncəsənətimizdə realist dəzgah boyakarlığının təşəkkülü, portret və mənzərənin müstəqil janr kimi formalaşması məhz Bəhruz Kəngərlinin adı ilə bağlıdır.***



Bəzən çox qısa yaşanmış bir ömür də əbədi olmağa, ölməzlik adını layiqincə daşımağa kifayət edir. Elə ömrünün 30-cu ilində bu dünyanı tərk edən gənc rəssamımız Bəhruz Kəngərlinin ömrü kimi... Həyatda çox qısa ömür sürmüş Bəhruz Kəngərli dərin təfəkkürlü və qızıl fırçalı rəssam kimi ədəbi ömrünün əbədiliyinə qətiyyətlə imza atmışdır. Bu görkəmli rəssamın həyatı təzadlarla, qəribəliklərlə dolu idi. Tale heç də ona qarşı hər zaman xoş davranmamış, uşaqlıqda keçirdiyi ciddi xəstəlik gənc rəssamı eşitmə problemi ilə üz-üzə qoymuşdu. Ancaq yaşadığı bu çətinlik onun rəssamlığa olan bağlılığını qətiyyən azaltmamış, həyat eşqinin alovlanmasına əngəl ola bilməmişdi. Bəhruz Kəngərlinin sənətə olan sevgisini rəssamın analığı Şirin xanım belə xatırlayırdı: *“Əvvəllər nə mən, nə də atası Bəhruzun şəkil çəkməsinə əhəmiyyət verməzdik. Hətta biz heyifsilənirdik ki, o, vaxtının çoxunu şəkil çəkməyə sərf edir. Amma sonralar atası onun istedadına inanmağa başladı, onun üçün Tiflisdən kağız, karandaş, rəng gətirdi”.*

Uşaq vaxtı ağır xəstəlik keçirən Bəhruz Kəngərli bu ağrı-acılara sinə gərmək üçün fırçadan möhkəm yapışaraq çox erkən yaşlarında rəssamlığa meyil göstərmişdir. Onun rəssam kimi püxtələşməsində Cəlil Məmmədquluzadənin, “Molla Nəsrəddin” jurnalının böyük rolu olmuşdur. Yaradıcılığının ilk dövründə karikatura və satirik rəsmlər, eləcə də məişət səhnələrini çəkən Bəhruz Kəngərli öz rəsmləri ilə müasirlərinin diqqətini çəkmişdir.

1914-cü ilin iyununda rəssamın Naxçıvanda ilk böyük fərdi sərgisi təşkil olunmuş, burada nümayiş olunan rəsm əsərləri hər kəsi heyran etmişdi. 1914-cü ildə “İqbal” qəzeti Bəhruz Kəngərli haqqında yazırdı: *“Cavan rəssamımız gələcəkdə iftixarımız olacaqdır”.*

Ümummilli liderimiz Heydər Əliyev Bəhruz Kəngərli yaradıcılığına daim böyük qayğı göstərmişdir. Ulu öndərimizin təşəbbüsü ilə Naxçıvan şəhərində Bəhruz Kəngərli Muzeyi yaradılmış, Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Sərgi Salonuna Bəhruz Kəngərlinin adı verilmişdir. 2002-ci ilin yayında muzeyin açılış mərasimində xalqımızın böyük oğlu Heydər Əliyev Bəhruz Kəngərli yaradıcılığını yüksək qiymətləndirərək demişdir: ***“Bəhruz Kəngərlinin əsərləri Azərbaycan rəssamlıq sənətinin, mədəniyyətinin ən görkəmli nümunələrindəndir. Biz bununla fəxr etməliyik. Fəxr etməliyik ki, Azərbaycan xalqının belə böyük istedada malik insanları olubdur”.***

Bu müdrik fikirlərin işığında bir daha illərin dizini qatlaya-qatlaya zamanın güzgüsündə öz aydın ziyası ilə könülləri riqqətə gətirən Bəhruz Kəngərli xəzinəsinin boyalardan qalxan sənət dünyasına üz tutduq. O əbədiyaşar dühadan bizə əmanət və yadigar qalan “Atabəy məqbərəsi”, “İmamzadə”, “Nuhun qəbri”, “İlanlıdağ”, “Qızlar bulağı”, “Qoca kişi”, “Toy”, “Elçilik” kimi əsərlər ifadəliliyi, bədii-estetik dəyəri ilə diqqət çəkir. Bəhruz Kəngərli bütün varlığı ilə doğma torpağına bağlı, onun gözəlliklərindən zövq alan və bunu yaradıcılığında öz mükəmməlliyi ilə əks etdirən vətəndaş qeyrətli bir şəxsiyyət olmuşdur.

Sənətkarın təbiət mövzusunda yaratdığı əsərlərdə yurdumuzun zəngin florası və füsunkarlığı, təbiiliyi minbir gözəlliyi ilə əks olunmuşdur. “Şəlalə”, “Günəş batarkən”, “Dağlıq mənzərə”, “Ağrı dağı”, “Ay işığında” adlı əsərləri təbiətin poeziyasını fırçanın qüdrəti ilə göz yaddaşımıza köçürmüşdür. Uzun müddət bu mənzərələrin təsirindən ayrıla bilmirsən. Qəribədir ki, Bəhruz Kəngərli sanki az yaşayacağını duyurmuş. Bu səbəbdən də müxtəlif mövzularda öz fırçasını sınasa da, bütün yaradıcılığı Vətənə, torpağa, xalqa, taleyimizə bağlı olmuşdur. O bir tərəfdən ilin fəsillərini kətana köçürür, digər tərəfdən mədəniyyət abidələrimizin rəsmlərini çəkirdi. Dövrünün qabaqcıl ziyalılarının portretləri üzərində işləyir, karikatura və satirik rəsmlər, memarlıq, mənzərə və məişət səhnələrini əks etdirən rəsm, akvarel və rəngkarlıq əsərləri yaradırdı.

Onun yaradıcılığında bir sıra əsərlər də var ki, bütövlükdə, xalqımızın yaşadığı faciəli illərin ağrı-acılarını əks etdirir. Bəhruz Kəngərli 1918-1920-ci illərdə mənfur erməni daşnaklarının Azərbaycanda törətdikləri faciələri təsvir edən, öz ana torpaqlarından zorla qovulmuş və Naxçıvana pənah gətirmiş azərbaycanlı qaçqınların portretlərindən ibarət silsilə əsərlər də yaratmışdır. Bu silsilədən, incə rəssam barmaqlarının möcüzəli toxunuşundan yaranmış “Qaçqınlar”, “Qaçqın qız”, “Qaçqın oğlan”, “Qaçqın qadın”, “Yurdsuz ailə”, “Ayaqyalın qaçqın oğlan” və sair kimi onlarla portretə baxarkən orada təsvir olunan insanların gözlərindəki kədər, Vətən həsrəti insanın qəlbinin dərinliklərinə nüfuz edir. Tarixi reallıqları özündə əks etdirən bu rəsm əsərləri daşnakların törətdikləri qırğınların, deportasiyaların, ümumən, millətimizin üzləşdiyi dərdlərin gələcək nəsillərə çatdırılmasında əvəzsiz mənbədir. Yuxarıda adları çəkilən əsərlər təkcə portret kimi sənətkarlıq səviyyəsinə görə deyil, həm də tarixi sənəd kimi də dəyərlidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***“O, əsərlərində xalqımızın tarixini və dövrün ictimai-siyasi hadisələrini dolğun əks etdirən bir sənətkar kimi yüksək qiymətə layiqdir. Xalqımızın başına gətirilən müsibətləri, ermənilər tərəfindən doğma yurdundan zorla qovulmuş azərbaycanlı qaçqınların taleyini əks etdirən “Qaçqınlar” silsiləsinə daxil olan əsərləri Azərbaycan tarixinin, xalqımızın dəyərli nümunələridir”.***

**Ulu öndər Heydər ƏLİYEV:** ***Bəhruz Kəngərlinin əsərləri Azərbaycan rəssamlıq sənətinin, mədəniyyətinin ən görkəmli nümunələrindəndir. Biz bununla fəxr etməliyik. Fəxr etməliyik ki, Azərbaycan xalqının belə böyük istedada malik insanları olubdur.***

Bu rəssamın əsərlərinə diqqət yetirdikdə duyursan ki, Bəhruz Kəngərli hərtərəfli rəssam olmuşdur. Onun müraciət etmədiyi mövzu yoxdur. Maraqlısı da budur ki, rəssamın fırçasından doğulan bütün əsərlər qiymətlidir. Bəhruz Kəngərli həm də milli teatr rəssamlığının banilərindən sayılır. 1910-cu illərdə Naxçıvan teatrında tamaşaya qoyulan “Ölülər” (C.Məmmədquluzadə), “Hacı Qara” (M.F.Axundzadə), “Pəri-cadu” (Ə.Haqverdiyev) əsərlərinin bədii tərtibatını və geyim eskizlərini də məhz Bəhruz Kəngərli vermişdir.



Azərbaycan Xalq Cümhuriyyəti dövründə Bəhruz Kəngərli müntəzəm işləyərək boyakarlıq və qrafik əsərləri yaratmışdır. O həm də rəssamlıq sənətini gənclərə öyrətmək və sevdirmək üçün xüsusi dərnək açaraq fərdi sərgilərini də təşkil edirdi.

Tədqiqatçıların fikrincə, Bəhruz Kəngərlinin 2 minə yaxın portret, mənzərə və rəsm əsərləri əldən-ələ düşərək itmişdir. Hazırda Azərbaycan Dövlət İncəsənət Muzeyində Bəhruz Kəngərlinin 500-ə yaxın əsəri qorunur. Naxçıvandakı muzeydə də 50-dən çox orijinal əsəri nümayiş etdirilir. Moskva Dövlət Tarix Muzeyində və şəxsi kolleksiyalarda da əsərləri saxlanılır.

Bəhruz Kəngərlinin yaradıcılığı haqqında ən dəyərli fikirləri vaxtı ilə ümummilli lider Heydər Əliyev söyləmişdir: ***“Bəhruz Kəngərlinin əsərləri həddindən artıq qiymətlidir. Birincisi, onun rəssamlıq ustadlığına görə, ikincisi, onun yaratdığı obrazlara görə – mən insan obrazlarını deyirəm. Xüsusən, o, ağır dövrün, 1918, 1919, 1920-ci illərin çətin dövründə xalqımızın ağır vəziyyətdə olmasını az da olsa, öz əsərlərində əks etdiribdir”.*** Bu, elə bir qiymətdir ki, bizim hər birimizə bələdçilik edir. Yəni Bəhruz Kəngərlinin kim olduğu, Azərbaycan mədəniyyəti tarixində hansı mövqedə dayandığı tamamilə aydınlaşır.

Görkəmli sənətkarın sənət dünyası, əbədiyaşar yaradıcılığı muxtar respublikamızda yüksək qiymətləndirilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun imzaladığı “Görkəmli rəssam Bəhruz Kəngərlinin 120 illik yubileyinin keçirilməsi haqqında” 2012-ci il 12 yanvar tarixli Sərəncam bunun bariz ifadəsidir. Naxçıvan şəhərində yaradılmış Bəhruz Kəngərli Muzeyi binasının 2013-cü il iyun ayının 24-də əsaslı yenidənqurmadan sonra açılışı olmuşdur. Bəhruz Kəngərlinin əsərlərindən ibarət albom-kataloq hazırlanmışdır. Bu gün muzeydə Bəhruz Kəngərli irsinə aid 900-dən çox eksponat mühafizə olunur. Muzeydə rəssamın 341 rəsm əsəri mövcuddur. Bu rəsm əsərlərindən 58-i orijinaldır.

***Azərbaycan incəsənətinin tarixində özünəməxsus xidmətləri ilə yaşayan Bəhruz Kəngərli kimi sənətkarlar bəşəri ideyalı insanlar olublar. Bir qərinəlik ömründə əbədiyaşar əsərlərə həyat verən, incəsənət tariximizin unudulmayan nümayəndəsinə çevrilən Bəhruz Kəngərli həmişə müasirimiz olaraq bizimlə bərabər gələcəyə addımlayır.***

**✍ Türkan HÜSEYNLİ**

# Culfa özünün mədəni intibah dövrünü yaşayır

***Müasir həyatda dünya xalqlarının sivilizasiyası onun tarixi və mədəniyyəti ilə ölçülür. Azərbaycan xalqı da o xalqlardandır ki, qeyd olunan hər iki reallığın qədimliyi və zənginliyi ilə seçilir. Zəngin mədəniyyətinin izi tarixin çox uzaq dövrlərinə gedib çıxan ulu Naxçıvan diyarı isə bu sivilizasiyanı günümüzə daşıyan unikal regionlardan biridir. Bu yurdun hansı bölgəsinə getsən, orada yaşı yüz illərlə, bəzən isə min illərlə ölçülən bir daş, qaya parçası, tikiliyə rast gələrsən. Əsrlərin sınağından süzülüb gələn bu yadigarlar müxtəlif zamanlarda dağılmağa, aşınmalara məruz qalsa da, yenə də öz milli kimliyini tarix qarşısında sübut etməkdədir. Bu cür zəngin yadigarları özündə ehtiva edən bölgələrdən biri də Culfa rayonudur.***

Culfa rayonu istər tarixi, istər dini, istərsə də mədəni abidələri ilə hər zaman diqqət mərkəzində olan bölgələrimizdəndir. Adı müqəddəs “Qurani-Kərim”də keçən Əshabi-Kəhf mağarası, Şərq aləmində hürufiliyin banisi sayılan böyük mütəfəkkir və filosof-şair Fəzlullah Nəiminin qəbrinin yerləşdiyi Xanəgah türbəsi, Naxçıvan memarlığının incilərindən sayılan Gülüstan türbəsi, 14 il xarici yadellilərə sinə gərmiş Əlincə qalası, Naxçıvanın simvolu sayılan əsrarəngiz Haçadağ məhz qədim Culfanın köksündə qərar tutub. Müasir Culfa isə bu tarixi və təbii gözəlliklərin fonunda daha da gözəlləşir...

İndi Culfa rayonu muxtar respublikamızın digər rayonları kimi, özünün intibah dövrünü yaşayır. Culfa şəhəri də daxil olmaqla rayonun əksər yaşayış məntəqələrini öz ağuşuna alan quruculuq tədbirləri bu qədim bölgənin simasını xeyli dəyişməklə bərabər, insanların rahat yaşayışını da təmin etmişdir. Sosial-iqtisadi göstəriciləri ildən-ilə yüksələn bu rayon həm də mədəni tərəqqisi ilə diqqət çəkir. Rayon Mədəniyyət və Turizm şöbəsinin müdiri Füzuli Hüseynli bizimlə söhbətində bildirir ki, rəhbərlik etdiyi şöbə rayon üzrə 58 mədəniyyət müəssisəsini özündə birləşdirir. Mədəniyyətə göstərilən böyük qayğının nəticəsidir ki, bu müəssisələrin yarıdan çoxu – 31-i yeni binada fəaliyyət göstərir. Rayon üzrə 15 mədəniyyət evi, 12 klub, 26 kitabxana, 1 muzey, 2 musiqi məktəbi olmaqla, Əlincəçay xanəgahı sakinlərə mədəni xidmət göstərir. Şöbə müdirinin sözlərinə görə, indi həm rayon mərkəzində, həm də rayonun müxtəlif kəndlərində insanların asudə vaxtının səmərəli təşkili, həmçinin müxtəlif adət-ənənələrimizin, milli dəyərlərimizin qorunması və təbliği baxımından hərtərəfli şərait yaradılıb.

Füzuli Hüseynlinin dediklərindən:
– Azərbaycan xalqının böyük oğlu, ümummilli lider Heydər Əliyev ölkəmizə rəhbərliyinin bütün dövrlərində mədəniyyətin inkişafına, bu sahədə çalışan insanlara böyük diqqət və qayğı göstərmişdir. Məhz onun rəhbərliyi dövründə xalqımızın keçmişdən süzülüb gələn adət-ənənələrinə, milli dəyərlərinə böyük sevgi ilə yanaşılmağa başlanmışdır. 1969-cu ildən sonra muxtar respublikamızda, həmçinin Culfa rayonunda mədəniyyət müəssisələri yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Culfa Rayon Mədəniyyət Evi 2007-ci ildə əsaslı təmir və yenidənqurma işlərindən sonra istifadəyə verilmişdir. Rayon sakinlərinə mədəni xidmət üçün burada hərtərəfli şərait yaradılmışdır. Müxtəlif əlamətdar günlərlə bağlı Mədəniyyət Evinin əməkdaşları tərəfindən maraqlı tədbirlər təşkil olunur. Yola saldığımız 2013-cü il bizim üçün daha əlamətdar oldu. Belə ki, həmin ilin muxtar respublikamızda “Heydər Əliyev ili” elan olunması ilə əlaqədar olaraq rayonun bütün mədəni-maarif müəssisələrində ulu öndərin həyat və fəaliyyətini əks etdirən sərgilər təşkil edilmiş, ümummilli liderə həsr olunmuş şeir və mahnı müsabiqələri, kitabxanalarda oxucu konfransları, lektoriyalar keçirilmişdir.

Milli dəyərlərimizin təbliği istiqamətində görülən işlərlə bağlı sualımıza cavab olaraq şöbə müdiri qeyd edir ki, xalqımıza məxsus dəyərlərin yaşadılması, təbliği qarşımızda duran əsas vəzifələrdən biridir. Görülən işlərin nəticəsidir ki, indiyədək kənd mədəniyyət evlərinin nəzdində 11 folklor kollektivi yaradılmış, ötən il rayon Mədəniyyət Evində yeni rəqs dərnəyi təşkil edilmişdir. Otuza yaxın uşaq və yeniyetmənin iştirak etdiyi dərnəkdə milli rəqslərimiz öyrədilir.

Culfa rayonunda qonaqların tez-tez ziyarət etdiyi ünvanlardan biri də rayon Tarix-Diyarşünaslıq Muzeyidir. Bu mədəniyyət müəssisəsi əldə edilmiş arxeoloji abidələr, maddi-mədəniyyət nümunələri hesabına daha da zənginləşib. 2912 ədəd eksponatın saxlanıldığı bu muzeyi ziyarət edənlər arasında xaricdən gələn qonaqlar da az deyil.

Müasir dövrdə intellektual səviyyənin yüksəldilməsində, asudə vaxtın səmərəli təşkil edilməsində mühüm rol oynayan ünvanlardan biri də kitabxanalardır. Rayonda 26 kitabxana fəaliyyət göstərir. Mərkəzləşdirilmiş və uşaq kitabxanaları Culfa şəhərində, digərləri isə mövcud 24 kəndin hər birində fəaliyyət göstərir. Hər iki kənd kitabxanasından biri və ya 13 kənd kitabxanası yeni binada fəaliyyət göstərir. Bu kitabxanalarda, ümumilikdə, 315 min 228 ədəd ədəbiyyat mövcuddur ki, onlardan 44 mini latın qrafikalı nəşrlərdən ibarətdir. Füzuli Hüseynlinin sözlərinə görə, kitabxanalar bu gün oxucu müzakirələrinin, açıq dərslərin mütəmadi olaraq keçirildiyi ünvanlardandır. Şair və yazıçıların yubiley və xatirə günlərinin, gənclərin vətənpərvərlik, milli-mənəvi dəyərlərə sədaqət ruhunda formalaşdırılmasında bədii təsir gücünə malik əsərlərin müzakirəsinin keçirilməsində kitabxanalar mühüm əhəmiyyətə malikdir. Və kitabxanaların rolu bu sahədə ildən-ilə artmaqdadır.

*Bəli, Culfa rayonunun müxtəlif mədəniyyət müəssisələri ilə tanış olduqca onun da fərqinə varmış olursan ki, muxtar respublikamızda hər bölgənin inkişafı onun yalnız sosial, iqtisadi tərəfləri ilə deyil, həm də mədəni yüksəlişi ilə əhatələnir.*

**✍ S.HƏSƏNOV**

# Hüseyn xan Naxçıvanskinin hünəri təsvir edilmiş rəsm əsəri haqqında

XIX əsrin sonlarında və XX əsrin əvvəllərində Rusiyanın məşhur batalist (döyüş mənzərələrini təsvir edən) rəssamlarından biri olan Viktor Vikentyeviç Mazurovskinin (1859-1917) çəkdiyi rəsmlər ötüb-gedən tarixi hadisələri əks etdirən əsərlərdir. Qeyd edək ki, rəssam Polşanın tanınmış mazurlar nəslindəndir. O, ilk təhsilini 1876-1877-ci illərdə Varşava şəhərindəki rəssamlıq məktəbində almış, 1877-ci ildən isə Peterburqdakı Rəssamlıq Akademiyasında professor B.P.Villevoldenin sinfində təhsilini davam etdirmişdir.

1904-1905-ci illərdə rus-yapon müharibəsində iştirak edən batalist rəssam V.V.Mazurovski həmyerlimiz, süvari generalı Hüseyn xan Naxçıvanskinin süvariləri ilə birgə döyüş zamanı maraq doğuran bir rəsm əsəri çəkmişdir. Elə döyüş vaxtı – canlı olaraq.

Bu rəsm əsəri ilə bağlı bir sıra axtarışlarımız oldu və nəticələri qəzetimizin oxucuları ilə bölüşmək istəyirik. Kəngərli nəslinə mənsub olan xan Naxçıvanskilər ailəsinin taleyi Rusiya imperiyasının Qafqazda apardığı siyasətlə sıx bağlı olmuşdur. Hərbçi Naxçıvanskilərin fəaliyyəti Rusiya imperiyasına hökmdarlıq etmiş Romonovlar sülaləsinin dörd nümayəndəsinin (I Nikolay, II Nikolay, II Aleksandr, III Aleksandr) hakimiyyəti dövrlərinə təsadüf edir. Kəngərli tayfasının bir sıra nümayəndələri XIX əsrin ikinci yarısında və XX əsrin əvvəllərində Rusiyanın hərb tarixində silinməz izlər qoymuş, həmçinin 1918-1920-ci illər Azərbaycan Xalq Cümhuriyyətinin Milli Ordusunun yaradılmasında fəal iştirak etmişlər.

Həmin nəslin məşhur hərbçilərindən biri olan Hüseyn xan Naxçıvanskinin fəaliyyətinin bəzi məqamlarının yada salınması batalist rəssam V.V.Mazurovskinin çəkdiyi rəsm əsəri ilə bağlı bəzi tədqiqatlar aparılmasına kömək edə bilər. Ona görə də həmin illərin tarixinə xroniki olaraq ekskurs etməyimiz zəruridir.

23 fevral 1904-cü ildə Hüseyn xan Naxçıvanski hərbi xidmətdə fərqləndiyinə görə Bolqarıstanın dördüncü dərəcəli “Müqəddəs Aleksandr” ordeni ilə təltif olundu. Artıq bu zaman, necə deyərlər, Yaponiya ilə müharibə qapının astanasında idi. Port-Artur şəhəri uğrundakı siyasi çəkişmə artıq rus-yapon müharibəsinə gətirib çıxarmışdı. Rusiyanın mötəbər dairələrində və hərbi nazirliklərdə başlayacaq müharibəyə ciddi hazırlıq gedirdi. Əlahəzrətin saray qvardiyasında xidmət edən polkovnik Hüseyn xanı Qafqaza, birbaşa Dağıstana göndərməyi qərara aldılar. Məqsəd orada yaşayan döyüşkən dağlı xalqlarından ibarət süvari polku yaratmaq idi.

Bu məsələ Rusiyanın hərbi nazirliyində geniş müzakirə edildi, əsasnamələr və əmrlər hazırlandı. 1 mart 1904-cü ildə polkovnik Hüseyn xan Naxçıvanski təcili olaraq Qafqaz hərbi dairəsinin sərəncamına göndərilir. Arxiv sənədində olan qeydlərdən məlum olur ki, o, 16 martda Dağıstanın paytaxtı Petrovska (indiki Mahaçqala) gəlir və İkinci Dağıstan Süvari Polkunu təşkil etməyə başlayır.

Rusiyanın hərbi nazirinin əmrinə əsasən, həm də Qafqaz süvari briqadası yaradılmalı və Qafqazın müsəlman xalqlarından yaradılan ikinci Dağıstan polku və Tersk-Kuban kazaklarından ibarət olan alay yuxarıda adıçəkilən briqadanın tərkibində birlikdə fəaliyyət göstərməliydi.

Əmrə əsasən, İkinci Dağıstan Süvari Polkunda 744 süvari olmalıydı. Altı sotnya (yüzlük), hər bir yüzlükdə 4 rota təşkil edilməliydi. Hətta yaş həddi də qeyd edilmişdi: 21-40 yaş.

Könüllü olaraq yaradılan bu qeyri-nizami süvari qoşun polkuna gələnlərin çoxluğu Hüseyn xanın işini çətinləşdirmişdi. Hətta ortayaşlı hərbçilər də gəlirdilər. Hüseyn xanın Sankt-Peterburqda tanış olduğu 84 yaşlı Surxay xan Qazıqumuxlu da fəxri bayraqdar kimi müharibəyə gedənlərin siyahısında idi. Surxay xanın bu hünərini görən gənclərin axını o qədər oldu ki, polk bir ay müddətində tam formalaşdı.

Əslində, bu polkun adı sənədlərdə “Avar-Dargin Süvari Polku” kimi yazılmışdır. Bu haqda o dövrün populyar hərbi qəzeti olan “Russkiy invalid” qəzetində məlumat verilmişdir (20 iyun 1906, № 133).

Çarın fərmanı ilə 25 mart 1904-cü ildə Sankt-Peterburq Qafqaz Süvari Briqadası yaradıldı. Briqadanın tərkibinə İkinci Dağıstan və Tersk-Kuban Süvari polkları da daxil edildi; general-mayor Q.İ.Orbeliani Qafqaz Süvari Briqadasının rəisi vəzifəsinə təyin olundu. Saray qvardiyasının süvari polkunun polkovniki Hüseyn xan Naxçıvanski İkinci Dağıstan Süvari Polkunun komandiri, polkovnik Plautin isə Tersk-Kuban Polkunun komandiri vəzifələrinə təyin edildilər.



Qeyd edək ki, yaradılan polklarda könüllülük prinsipi daha ciddi qanunlarla əvəzləndi. Çünki müharibənin öz sərt qanun-qaydaları var. Belə olmasa, fərariliyin qarşısını almaq çətin olar. İkinci Dağıstan Süvari Polkunun sıralarında Hüseyn xanın özü ilə Tiflisdən gətirdiyi zabitlərin çoxu əvvəllər Qafqaz Süvari Diviziyasının tərkibində olan Draqun Polkunun döyüşçüləri idilər. Onlar at üstündə əla döyüşməyi bacarırdılar.

Avarlardan ibarət olan yüzlükdə vaxtı ilə Avar xanı olmuş Əli xanın oğlu general-mayor Maqsud Əlixanov, qardaşları süvari döyüşçü Qayıtmaz və yasovul Umalat bəylər də var idi. Maraq üçün deyək ki, general-mayor Maqsud Əlixanov Hüseyn xanın bacısı Zərintac bəyimin həyat yoldaşı idi.

Hüseyn xanın qardaşı Rəhim xanın kürəkəni Feyzulla Mirzə Qacar da (məşhur opera müğənnisi Xurşid xanım Naxçıvanskayanın həyat yoldaşı) bu polkun tərkibində müharibəyə gedirdi. Hüseyn xan Naxçıvanski özünə köməkçi kimi Araz xan Hacı Muradı təyin etmişdi. Araz xan əfsanəvi döyüşçü Hacı Muradın nəvəsidir. Müharibəyə gedəndə podpolkovnik rütbəsində olan Araz xan sonralar, 1916-cı ildə dördüncü dərəcəli “Müqəddəs Georgi” ordeninin kavaleri olmuşdur.

İndi gələk əsas mətləbə, yəni V.V.Mazurovskinin çəkdiyi döyüş rəsm əsərinə. Bu rəsm əsəri belə adlanır: *“İz nabeqa qenerala Mişenko. Ataka 2-qo Daqestanskoqo Polka u d. Lindanqau na yaponskuyu pexotu i artilleriyu pod komandoy Xana Naxiçevanskoqo. 14 yanvarya 1905 q” (General Mişenkonun qəfil həmlələrindən biri. İkinci Dağıstan Polkunun Xan Naxçıvanskinin komandirliyi altında Lindanqau kəndi yaxınlığında yapon piyada və artilleriyasına hücumu. 14 yanvar 1905-ci il)”.*

Ecazkar rəsm əsəridir. Ölümün üzərinə qorxmadan gedən bu müsəlman süvarilərinin üz-gözlərində cəsurluq apaydın görünür. Döyüşçülər hamısı dağlıların süvari geyimindədirlər. Polkovnik Hüseyn xan irəlidədir. Onun döyüş atı şahə qalxıb. Hüseyn xanın solundakı ağ atın üstündə oturan Araz xan Hacı Muraddır. Burada müxtəlif bayraqlar – ağ, qırmızı, sarı, yaşıl, mavi ştandartlar (döyüş bayraqları) görünür. Döyüşçülər hamısı vəznəli çuxadadırlar. Hüseyn xan da milli süvari geyimindədir. Onun arxasınca bayraqdar qırmızı rəngli döyüş bayrağını tutub. Ancaq bütün polkun döyüşçülərinin kürəyinə qırmızı qanovuz parça bağlanıb. İllərlə axtardığımız bir suala bu rəsm əsərində cavab tapdıq. Bu işdə bizə gənc şair Elnur Kəlbizadənin yazdığı şeirdən bir misra yardımçı oldu: “Babəkimin qaldırdığı qanlı kəfən bayrağımdır”.

İlk dəfə müharibədə döyüşən Hüseyn xan Kəngərli ulu babalarından qalma bir döyüş adətinə əməl etmişdir. Çox uzaq tarixlərdə Kəngərli cəngavərləri döyüşə gedəndə özləri qorxmazlıq kəfənini bax beləcə kürəklərinə bağlayırdılar, hətta atlarının başlarına da bağlayırdılar. Onlar Şah İsmayılın döyüşlərində də belə fərqlənirdilər. 1905-ci ilin 14 yanvarında da Kəngərli varisi olan Hüseyn xan bu ənənəyə sadiq qalaraq döyüşçülərini də belə bir qayda ilə ruhlandırmışdır. Bu rəsm əsərində döyüşçülərin çiyin-çiyinə dostcasına irəlilədikləri və hünərləri məharətlə təsvir olunmuşdur.

Hüseyn xan Naxçıvanskinin komandirlik etdiyi İkinci Dağıstan Süvari Polku həmin gün böyük şücaət göstərmişdir. Bu döyüş – müsəlman süvarilərinin qeyri-adi cəsurluğu çarın 27 yanvar 1907-ci ildəki əmrindən çıxarışında təsvir edilmişdir: *“... İkinci Dağıstan Süvari Polkunun komandiri olarkən birinci Zabaykalsk kazak batareyası bütün patronlarını atıb qurtardıqdan sonra yapon piyadalarının hücumuna məruz qalanda o, general-adyutant Mişenkodan düşmənə həmlə etmək əmri alıb, polkla yaponların cinahına girmiş və iki verstlikdən hücuma keçmişdir ki, bununla da, yaponların piyadalarını hücumu dayandırmağa və gizlənməyə məcbur etmişdir.*

*Yapon batareyası topu çevirib bütün atəşi dağıstanlılar üzərində cəmləşdirsə də, yaponların piyadaları polkun gizləndikləri yerə atəş açsalar da, Hüseyn xan hücumu davam etdirmiş və yalnız 300-400 metrlik keçilməz dərəyə çatdıqdan sonra geri dönməyə məcbur olmuşdur. Həm də ki, polk tam qaydasında, döyüş meydanında ölü və yaralı qoymadan geri çəkilmişdir”.*

Elə bu döyüş hünərinə görə Hüseyn xan Naxçıvanski dördüncü dərəcəli “Müqəddəs Georgi” ordeni ilə təltif edilmişdir. Və o vaxtlar Rusiya imperiyasında noyabrın 26-da “Müqəddəs Georgi” ordeninin təsis edilməsi ilə bağlı təntənəli bayram keçiriləndə İkinci Dağıstan Süvari Polkunun ünvanına aşağıdakı şüarlar səsləndirilmişdir: *“Bu gün cəsurların bayramıdır, qəhrəmanların bayramıdır.*

*Eşq olsun onlara, eşq olsun!”*

***Həmin rəsm əsərinin çəkilməsindən 109 il ötür. Yağılar bu tarixi şəkli də özününküləşdirmək istəyirlər. Yox, bunu bacara bilməzlər. Çünki o süvari polkunu uzaq Mancuriyada döyüşə aparan əfsanəvi qəhrəman Xan Naxçıvanski – Hüseyn xan Kəngərli Qafqazın “ürəyi” olan oğuz yurdu Naxçıvanın yetirməsidir, unudulmaz övladıdır.***

***Eşq olsun ona!***

**Musa QULİYEV,**
**Elnur KƏLBİZADƏ**
***AMEA Naxçıvan Bölməsinin əməkdaşları***

# Mən Azərbaycanı tanıyıram



Naxçıvan Dövlət Universitetində universitetin Tələbə-Gənclər Təşkilatı tərəfindən Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun maliyyə, Azərbaycan Tələbə-Gənclər Təşkilatları İttifaqının təşkilati dəstəyi ilə “Mən Azərbaycanı tanıyıram” tələbələrarası bilik olimpiadasının II mərhələsi keçirilmişdir.

Bilik olimpiadasının əsas məqsədi Naxçıvan Muxtar Respublikasında təhsil alan tələbə-gənclərin potensialını üzə çıxarmaq, Azərbaycan haqqında biliklərini daha da artırmaq, daxili inteqrasiyanı gücləndirmək, tələbə-gəncliyi bir araya toplamaq, yüksək bilik və bacarığa malik gəncləri qiymətləndirmək, digər gənclərdə stimul yaratmaq, onların asudə vaxtlarını səmərəli keçirmələrinə şərait yaratmaqdan ibarətdir.

350-yə yaxın tələbənin iştirak etdiyi I mərhələdə 90 nəfər yüksək nəticə göstərərək II mərhələyə vəsiqə qazanmışdır. II mərhələdə tələbələrə 50 sual təqdim olunmuşdur. Qeyd edək ki, bu mərhələdə ən yüksək nəticə göstərən 10 tələbə Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun və Naxçıvan Dövlət Universitetinin qiymətli hədiyyələri ilə təltif ediləcəkdir.

**Mehriban SULTAN**

# Əsgərlərimizə sovqat verilib

2013-cü ilin avqust ayında Naxçıvan Muxtar Respublikası Ali Məclisində keçirilən müşavirədə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi qarşısında da bir sıra vəzifələr qoyulmuşdur. Həmin vəzifələrdən biri də hərbi hissələr üçün yun corabların toxunmasının təşkili olmuşdur. Tapşırığın icrasına müvafiq olaraq, 2013-cü ilin sonuna kimi ahıl və fiziki imkanları məhdud vətəndaşlar tərəfindən toxunan 5000 cüt yun corab və 363 ədəd şərf hərbi hissələrə təhvil verilmişdir.

Bu istiqamətdə növbəti tədbir keçirilmiş, fiziki imkanları məhdud vətəndaşlar tərəfindən əsgərlərimiz üçün toxunan 140 ədəd yun şərf “N” hərbi hissəyə təqdim olunmuşdur.

Məlumat üçün qeyd edək ki, sağlamlıq imkanları məhdud 16 şəxslə bağlanmış müqavilə əsasında, ümumilikdə, 500 ədəd şərf toxunaraq əsgərlərimizə təhvil verilmişdir.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

# *Fermerlərin və torpaq mülkiyyətçilərinin nəzərinə!*

“Naxçıvan Aqrolizinq” ASC fermer və torpaq mülkiyyətçilərinin nəzərinə çatdırır ki, 2013-2014-cü il mövsümü üçün əkilmiş taxıl sahələrinə güzəştli şərtlərlə dövlət dəstəyi hesabına verilən azot gübrəsinin 22.01.2014-cü il tarixdən bütün rayon bazalarında və mərkəzi bazada buraxılışına başlayacaqdır. Fermer və torpaq mülkiyyətçiləri 22.01.2014-cü il tarixdən müraciət edib çatası gübrələri ala bilərlər.

*“Naxçıvan Aqrolizinq” ASC*

## *Allah rəhmət eləsin*

Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin kollektivi iş yoldaşları Şölə Məmmədovaya, atası
**NÜSRƏDDİNİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri Ülviyyə Həmzəyeva və birliyin üzvləri Məmməd Rzayevə, anası
**XƏDİCƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Müəllimlər İnstitutunun rektorluğu və professor-müəllim heyəti Məmməd Rzayevə, anası
**XƏDİCƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurasının əməkdaşları şura üzvü Fərasət Əsədullasoya, əmisi
**MİRHEYDƏR ƏSƏDULLAYEVİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun kollektivi Məmməd və Zakir Rzayevlərə, əzizləri
**XƏDİCƏ XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

“Şərq qapısı” qəzetinin kollektivi Məmməd Rzayevə, anası
**XƏDİCƏ XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Naxçıvan Dövlət Universitetinin Bələdiyyə və turizm kafedrasının əməkdaşları Məmməd Rzayevə, anası
**XƏDİCƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Dövlət Universitetinin Kimya kafedrasının müdiri Tofiq Əliyev və kafedranın əməkdaşları Məmməd Rzayevə, anası
**XƏDİCƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi Mədəniyyət üzrə Elmi-Metodik Mərkəzin direktoru Nizami Əzizəliyev və mərkəzin kollektivi Əli Rzayevə, anası
**XƏDİCƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Özəl Universitetinin Humanitar elmlər kafedrasının professor-müəllim heyəti Məmməd və Zakir Rzayevlərə, əzizləri
**XƏDİCƏ XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Naxçıvan Musiqi Kollecinin direktoru Yusif Babayev və kollecin kollektivi iş yoldaşları Mustafa Məmmədova, qardaşı
**NÜSRƏDDİNİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Dövlət Universitetinin İqtisad fakültəsinin kollektivi Məmməd Rzayevə, anası
**XƏDİCƏ XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


ŞƏRQ qapısı

**Baş redaktor:**
TURAL SƏFƏROV

*Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
*E-mail: serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* **Kərəm Həsənov**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və “Əcəmi” NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 4020. Sifariş № 80**